


# Yeni hədəflər:

## regionlarda sənaye parkları

### *Bu, iqtisadi fəallığın yüksəldilməsində, məşğulluğun təmin olunmasında müstəsna əhəmiyyət kəsb edir*

**Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və abadlıq-quruculuq işləri həyata keçirilir, eyni zamanda iqtisadiyyatın dirçəldilməsi istiqamətində mühüm addımlar atılır. Təqdirəlayiq hal kimi onu da qeyd etmək lazımdır ki, bu ərazilərdə məşğulluğun təmin olunmasında, iqtisadi fəallığın yüksəldilməsində yeni yaradılan sənaye parkları da müstəsna əhəmiyyət kəsb edir. Sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Prezidentinin 2021-ci il 22 yanvar tarixli Fərmanına əsasən İqtisadi Zonaların İnkişafı Agentliyi yaradılmışdır. Beləliklə, Qarabağda yaradılan sənaye parkları vasitəsilə dövlət işğaldan azad olunmuş ərazilərdə məskunlaşmanın təşviqi, eyni zamanda həmin ərazilərin iqtisadi potensialının mərkəzləşdirilməsi üçün müxtəlif alətlərdən istifadə edərək öz mövqeyini ortaya qoyur.**

Sənayenin yeni modellərin tətbiqi ilə inkişaf etdirilməsi istiqamətində atılan addımları xüsusi vurğulamaq lazımdır. Qlobal çağırışlarla uzlaşan sənaye parkları və məhəlləri, aqroparklar kimi mütərəqqi mexanizmlər ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə, neft-qaz amilindən asılılığın daha da azaldılmasına yeni imkanlar açır. Əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsi məqsədilə rəqabətqabiliyyətli və dayanıqlı iqtisadiyyatın formalaşdırılması, bu sahədə dövlətlə özəl müəssisələrin tərəfdaşlığının inkişafı və zəruri stimulların tətbiqinin xüsusi əhəmiyyəti nəzərə alınaraq Azərbaycan Prezidentinin 2021-ci il 28 may tarixli Fərmanı ilə Ağdam rayonunda Ağdam Sənaye Parkı yaradılmışdır. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat-kommunikasiya xətlərinin bərpası və bu istiqamətdə tranzit daşımaların həyata keçirilməsi üçün perspektiv imkanlar yarandığından, o cümlədən logistika, ticarət və digər xidmətlərin göstərilməsi, həmçinin qabaqcıl texnologiyalara və "yaşıl enerji" konsepsiyasına əsaslanan rəqabətqabiliyyətli və innovativ sənaye sahələrinin inkişafı üçün dövlət başçısının 2021-ci il 4 oktyabr tarixli Fərmanı ilə yaradılan Şərqi Zəngəzur iqtisadi rayonunda, Cəbrayıl rayonu ərazisində "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməli qoyulmuşdur. Ağdamda yaradılan sənaye parkı Azərbaycan ərazisində beşinci, "Araz Vadisi İqtisadi Zonası" sənaye parkı isə altıncıdır.

**(davamı 4-cü səhifədə)**

# Yeni hədəflər: regionlarda sənaye parkları

(əvvəli 1-ci səhifədə)

Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura və idarəetmə qurumlarına malik olan sənaye parkı müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi məqsədilə istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir. Sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğulara görə ƏDV-dən azaddır. Bundan başqa, parkın rezidentləri idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğulara görə 7 il müddətinə gömrük rüsumlarından azad olunurlar. Bu amil onların fəaliyyətinə əlavə stimul verir. Sənaye parkının yaradılmasında məqsəd innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi, iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin və əməkqabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır.

Ötən il Ağdam şəhərində Sənaye Parkının inşasına başlanılıb. Mayın 28-də Azərbaycan Prezidenti İlham Əliyev onun təməlini qoyub. İlkin olaraq burada sosial sahənin tikintisi həyata keçirilir. Belə ki, ərazidə sənaye zonasının tikintisində çalışacaq fəhlə və mühəndis kollektivinin yaşayışı üçün lazımi şərait yaradılacaq. Sosial sahədə inzibati bina, ofis və resurs təlim mərkəzi, bank və sığorta xidmətləri, gömrük xidməti, laboratoriya, idman və sağlamlıq mərkəzi, idman meydançası, tibb məntəqəsi, qonaq evi, köşk, kafe, bərbərxana, camaşırxana, avtopark və istirahət parkı fəaliyyət göstərəcək. Ümumilikdə isə Ağdam Sənaye Parkında İqtisadi Zonaların İnkişafı Agentliyi üçün mobilizasiya, qida sənayesi müəssisələri, kiçik istehsal və xidmət müəssisələri, istehsal sahəsi, tikinti materiallarının satışı, TIR parkı, texnika təmiri sahəsi, texniki zona və iri sənaye müəssisələri üçün nəzərdə tutulmuş sahələr olacaq. Burada tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, şərab, yem, gübrə istehsalı və emalının, eyni zamanda xidmət sahələrinin, soyuducu kameraların təşkili planlaşdırılır. Sənaye mərkəzində kiçik istehsal və xidmət müəssisəsi, iri sənaye və qida sənayesi müəssisələri də fəaliyyət göstərəcək. Yaxın zamanlarda ilk bir neçə belə müəssisənin tikintisinə başlanması gözlənilir. Ağdam Sənaye Parkının yaradılması Azərbaycanda artıq fəaliyyət göstərən dörd parkın uğurlu təcrübəsi, eləcə də beynəlxalq təcrübə nəzərə alınmaqla həyata keçiriləcək. Azərbaycanın işğaldan azad edilən ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılan




## *Bu, iqtisadi fəallığın yüksəldilməsində, məşğulluğun təmin olunmasında müstəsna əhəmiyyət kəsb edir*

Əlaqələndirmə Qərargahı nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin İqtisadi Məsələlər üzrə işçi qrupunun məlumatına əsasən, bu günə qədər Ağdam Sənaye Parkı üçün artıq 12 potensial rezident seçilib.

Sənaye klasteri üçün ayrılan sahə işğaldan əvvəl də sənaye istehsalı üçün istifadə edilib. Park Ağdam ətrafında 190 hektar ərazidə tikiləcək və Ağdam şəhərinə çəkilməsi planlaşdırılan əsas avtomagistral və dəmir yolu kommunikasiyalarının kəsişməsində yerləşəcək.

Oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlini qoyub. Cəbrayıl rayonunda yaradılacaq sənaye parkı 200 hektar ərazini əhatə edəcək. Ərazi kənd təsərrüfatı məhsullarının emalı, sənaye, sosial və texniki zonalara bölünəcək. Burada logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması planlaşdırılır. Sənaye Parkında tikinti üçün üzlük və izolyasiya materialları, mürəkkəb qatqı maddələri, metal konstruksiya istehsalı müəssisələrinin təşkili nəzərdə tutulur. Parkın ərazisində, həmçinin kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, süd və ət məhsulları istehsalı və emalı, şərab, yem, gübrə istehsalı, ipəkçilik müəssisələrinin, soyuducu kameraların qurulması, kiçik istehsal və xidmət sahələrinin yaradılması planlaşdırılır. Sənaye Parkının yaxınlığında yaşayış məntəqəsi olmadığı üçün sosial zonada 150 nəfərlik konteyner şəhərciyi qurulacaq. Şəhərcikdə Parkın idarə olunması və rezidentlər üçün ofis binaları, inzibati həyət, rezidentlər, tikintini həyata keçirən mühəndis və fəhlələr üçün yaşayış binaları və xidmət obyektləri, tibb məntəqəsi, idman meydançası və digər infrastruktur yaradılacaq. Bu layihənin həyata keçirilməsi bölgənin potensialının ölkə iqtisadiyyatına reinteqrasiyasına, yerli istehsalın inkişafına böyük təkan verəcək, məşğulluq səviyyəsinin yüksəlməsinə əlavə imkanlar yaradacaq. Bu istiqamətdə resursları səfərbər etməklə bölgənin qısa müddətdə ölkə iqtisadiyyatına inteqrasiyası məqsədilə addımlar atılır. İqtisadi ekspertlərin rəyinə görə, həmin ərazilərə ümumi yanaşma olacaq, amma eyni zamanda xüsusi zona statusundan da istifadə etməklə bölgəyə investisiyanın cəlbi nəzərdə tutulur. Ümumi inkişaf planına uyğun olaraq Cəbrayıl "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılması üçün münasib yer kimi müəyyən edilib. Belə ki, ərazi nəqliyyat-kommunikasiya imkanlarının üzərində yerləşdiyindən biznes üçün olduqca əlverişlidir. Dəmiryolunun bərpa edilməsindən sonra Zəngəzur üzərindən Naxçıvan-Türkiyə, Naxçıvan-İran, həmçinin əks istiqamətdə Gürcüstana, Rusiyaya malların daşınması mümkün olacaq. Zonanın Xudafərin körpüsünün yaxınlığında olması və gələcəkdə burada yeni sərhəd məntəqəsinin də fəaliyyətinin nəzərdə tutulması bölgənin iqtisadi əhəmiyyətini daha da artırır. Bu mənada zonanın İrana məhsul ixrac edilməsində də böyük üstünlükləri var.

Ölkəmizdə sənaye parklarının yaradılması istehsalın genişləndirilməsi, idxalın əvəz edilməsi və yeni ixrac imkanlarının yaradılması baxımından da çox əhəmiyyətlidir. Azərbaycan Prezidenti İlham Əliyev deyir: "Ölkəmizin inkişafı üçün yeni bir dövr başlayıb... biz azad edilmiş torpaqlara qayıdaraq, o torpaqların potensialından istifadə edəcəyik. Orada çox böyük potensial - bərpaolunan enerji növləri, qiymətli təbii sərvətlər, qızıl yataqları, mis yataqları, çaylar, su anbarları, kənd təsərrüfatı üçün münbit torpaq, turizm imkanları var. Yəni bu bölgələr bir çoxlarının fikrinə görə, növbəti inkişafımızın aparıcı qüvvəsinə çevriləcək".

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2022.- 11 yanvar.- S.1;4.